# "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin on yeddinci abzasında, 23-cü maddəsinin 5-ci hissəsində, 24-cü maddəsinin 2-ci hissəsinin və 38.1-ci maddəsinin ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23-cü maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1-ci maddəsinin on yeddinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

1.4. həmin Qanunun 24-cü maddəsinin 2-ci hissəsinin və 38.1-ci maddəsinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, sahibkarlıq subyektlərinə münasibətdə həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin 5-ci hissəsinə uyğun olaraq, tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması qaydasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin on yeddinci abzasına uyğun olaraq, tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə görə ödənişin məbləğlərini bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan normativ hüquqi akt təsdiq edildikdən sonra bir ay müddətində müəyyən etsin.

4. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 45 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. ikinci abzasda "həmin Qanunun" sözləri "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin on yeddinci abzasında, 23-cü maddəsinin 5-ci hissəsində, 24-cü maddəsinin 2-ci hissəsinin və 38.1-ci maddəsinin ikinci cümlələrində," sözləri ilə əvəz edilsin;

4.2. üçüncü abzasdan ", 23-cü maddəsinin 5-ci bəndində" sözləri çıxarılsın;

4.3. dördüncü - doqquzuncu abzaslar müvafiq olaraq beşinci - onuncu abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin Qanunun 23-cü maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.4. doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 1-ci maddəsinin on yeddinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;";

4.5. onuncu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

"həmin Qanunun 24-cü maddəsinin 2-ci hissəsinin və 38.1-ci maddəsinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, sahibkarlıq subyektlərinə münasibətdə həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2024-cü il*

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.11.